بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Baqir (ə)



Kitabın adı: İmam Baqir (ə)
Tərcümə edən: Seyyid Zahir Cavadov
Çap tarixi: 2018
Çap növbəsi: Birinci
Tiraj: 1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 5-18-070518-3



Adı: Məhəmməd

Məşhur ləqəbi: Baqirul-ülum

Künyəsi: Əbu Cəfər

Atası: Əli (İmam Səccad)

Anası: Fatimə (İmam Həsən Müctəbanın (ə) qızı)

Doğum tarixi: 57-ci hicri-qəməri ili, 1 rəcəb

Doğulduğu yer: Mədinə

İmamlıq müddəti: 19 il

Ömrü: 57 il

Şəhadət tarixi: 114-cü hicri-qəməri ili, 7 zilhiccə



Qatilinin adı: İbrahim ibn Vəlid (Hişam ibn Əbdülməlikin göstərişi ilə imamı zəhərləmişdir.)

Şəhid olduğu yer: Mədinə

Dəfn yeri: Bəqi qəbiristanlığı

## İmam Məhəmməd Baqirin (ə) viladəti

İmam Məhəmməd Baqir (ə) hicrətin əlli yeddinci ili, rəcəb ayının birində cümə günü Mədinə şəhərində babası imam Hüseynin (ə) evində dünyaya gəlmişdir.

Onun sevimli atası imam Səccad (ə) cəddi Peyğəmbərin (s) sünnəsinə uyğun olaraq yeni dünyaya göz açmış körpənin sağ qulağına azan, sol qulağına da iqamə oxudu və öncədən Peyğəmbər (s) tərəfindən seçilmiş adı qoydu.

İmam Baqirin (ə) anası imam Həsən Müctəbanın (ə) qızı Fatimədir. O, olduqca yüksək şəxsiyyətə malik imiş. İmam Sadiq (ə) nənəsi Fatimə barədə buyurur: “O, siddiqə (çox doğruçu) idi və imam Həsənin (ə) ailəsində onun bənzəri yox idi.”

İmam Baqir (ə) həm ata, həm də ana tərəfdən həzrət Əli (ə) ilə xanım Zəhranın (ə) nəslinə yetişən ilk şəxs kimi xüsisi fəxrə malik olub.



## Uşaqlıq dövrü

İmam Baqir (ə) hələ üç yaşıda babası imam Hüseynin (ə) karvanı ilə birlikdə Kərbəlaya getmiş, uşaqlıq çağlarından Peyğəmbər (s) ailəsinə edilən zülmlərin şahidi olmuşdur. O, düşmənin imam Hüseyni (ə) şəhid etdikdən sonra susuz uşaqları necə döydüyünü, xeymələri yandırdığını görmüş, əksər hadisələrin canlı şahidi olmuşdur.



Həzrət də atası, anası, bibisi həzrət Zeynəb (ə) və digər qadın-uşaqlarla birgə əsir oldu, yol boyu olmazın əzab-əziyyətlərə məruz qaldı, balaca addımları ilə böyüklərlə ayaqlaşmalı oldu və tikanlı çölləri sovuşdu.

O, düşmənin şəhidlərin kəsilmiş başlarına daş vurmalarını gördü, azğınların zülmünü bütün vücudu ilə hiss etdi. Elə qeyrət və müqavimət dərslərini də uşaqlıqdan öyrəndi. Kərbəladan Şama qədər bibisi həzrət Zeynəbin (ə) fədakarlılarına şahid oldu.



İmam zalımların hakim olduğu bir dövrdə həqiqətləri açır, ilahi elmləri təlim verir, camaatın çətinlikləri ilə yaxından maraqlanır, elmi-dini məsələlərə aydınlıq verirdi. O həzrətin imaməti dövründə maariflənmə işində dərin iz qoydu. Belə ki, onun şəhadətindən sonra oğlu imam Sadiqin (ə) elmi mərkəz yaradaraq dörd minə yaxın şagirdə təlim-tərbiyə verməyinə şərait yarandı. Deməli, bu ocaq İslam tarixinin ən rövnəqli məktəbi kimi qeyd edilir

**Həqiqi rəhbər**

İmam Səccad (ə) şəhid olmazdan qabaq Allahın əmri və Peyğəmbərin (s) vəsiyyəti ilə imaməti və müsəlmanlara rəhbərliyi oğlu imam Məhəmməd Baqirə (ə) tapşırdı. İmam Baqir (ə) öz növbəsində o dövrün çox ağır şəraitinə uyğunimamət vəzifəsini yerinə yetirir, dini göstərişləri və İslamın doləğun maarifini xalqa başa salırdı.



## Nadan düşmənlə gözəl rəftar

Mədinədə sakin olan Şam əhlindən bir şəxs nadanlığı üzündən imam Baqirlə (ə) düşmənçilik edirdi. Bununla belə, imamın evinə get-gəl edər, onun sözlərinə qulaq asardı. Bir gün o, yenə imamın evinə gəlib, ədəbsizliklə dedi: Yer üzündə heç kimə sənə və ailənizə olan qədər kin və nifrət bəsləmirəm. Evinə gəlməyimin səbəbi də sənin ədib, gözəl bəlağət və xoş bəyan sahibi olmağındır.

Bu düşmənçiliyin nadanlıq üzündən olduğunu bilən imam Baqir (ə) isə onunla çox mülayim davranaraq mehrimanlıqla cavab verdi.

Bir müddətdən sonra həmin şəxs bərk xəstələndi. Artıq həkimlər də onun sağalmasından ümidini üzdülər. O, imama qarşı pis rəftarını unutmamışdıı. Ona görə də, bir nəfəri həzrətin yanına göndərib, halallıq istəyərək xahiş etdi ki, ona cənazə namazını imam özü qılsın.

Şamlı kişinin xahişini çatdıran şəxs sübh namazı vaxtı imamı məsciddə tapıb, onun sifarişini həzrətə çatdırdı. İmam onun hələ diri olduğunu eşidəndə, ayağa qalxıb, iki rəkət namaz qıldı, sonra səcdəyə getdi və gün çıxana qədər səcdədə qalıb dua etdi. Günəş çıxandan sonra imam onun evinə tərəf getdi. Həzrət onun yatağına yaxınlaşıb, halını soruşdu və o da bir təhər cavab verə bildi. Daha sonra imam onu yataqdan qaldırıb oturtdu və ailə üzvlərindən xəstə üçün şərbət gətirmələrini istədi. Şərbət hazır olduqdan sonra həzrət öz əli ilə ona şərbəti içirdib, evdəbelə buyurdu: “Ona soyuq xörəklər verin.”

Nəhayət, imam evinə qayıtdı və hələ bir saat keçməmişdi ki, şamlı kişi şəfa tapdı. O, hədsiz sevinclə imam Baqirin (ə) görüşünə gəlib, təşəkkür edərək dedi: “Şəhadət verirəm ki, sən insanlara Allah tərəfindən höccətsən!”

İmamın güzəşti və mehribanlığı sayəsində o şəxs hidayət tapdı və beləliklə, həzrətin şiələri sırasına daxil oldu.



## Yəhudi və xristianların nüfuzu ilə mübarizə

İmam Baqirin (ə) dövrü İslamın digər dövrlərindən daha fərqli idi. Çünki o zaman Rumla Yunan imperiyalarının genişləndiyi dövrə təsadüf edir. Belə bir vaxtda yəhudi və xristian alimləri dünyanın hər tərəfindən İslam məmləkətlərinə daxil olur, elmi məsələlər ortaya atmaqla camaat arasında şübhə yaradır, öz ayin və əqidələrini İslama qatmaqla onu təhrif edir,



inkişafının qarşısını almağa cəhd edir və məhvinə zəmin yaradırdılar.

Belə bir dövrdə İslam icması elmi-mədəni rəhbərliyə ehtiyac duyurdu. Odur ki, imam elmi görüşlər təşkil etməklə həqiqi İslamı tanıtmağı, yəhudi, xristian və digərlərinin sual və şübhələrini cavablandırmağı, onların müsəlmanlar arasında nüfuzunu almağı qarşıya məqsəd qoyur.

Beləliklə, o həzrət əsl İslam maarifini yaymağa, yəhudi və xristian alimləri ilə mübahisələr aparmağa, müsəlmanların qarşılaşdığı elmi suallara cavab verməyə, şübhələri aradan qaldırmağa başlayır.

## İmam Baqirin (ə) xalq arasında hörməti

Xalq imam Baqiri (ə) çox sevirdi. Çünki imam təqva və digər insani keyfiyyətlərdən əlavə, elmi baxımından da müsəlmanların, xüsusilə şiələrin fəxri sayılırdı. O dövrdə çoxları onun elmi məqamında agah idi və o həzrət elmdə bütün müsəlman və qeyri-müsəlman arasında bənzərsiz şəxs sayılırdı.

Bununla belə, imam Baqir (ə) xalqın adi bir üzvü kimi yaşayır, əksər hallarda camaat arasında olurdu. Həzrət dövrünün ən səxavətlisi idi və öz zəhməti ilə əldə etdiyi malını asanlıqla yoxsullara paylayır, dünya malına bağlı deyildi. Doğrusu, o, dünya malını özünün və başqalarının ehtiyac və çətinliklərinin həlli üçün vasitə hesab edirdi. Ehtiyacı olanlara yardım edəndə də, onu camaatın gözündən uzaqda, böyük hörmətlə edərdi.





## İmamın ehtiyatı gözləməyi

İmam Baqirin (ə) səhabələrindən biri belə deyir:

Bir dəfə imam Məhəmməd Baqirin (ə) evinə gedib, içəri girmək üçün icazə istədim. Nədənsə, o gün məni saymırmış kimi əhəmiyyət vermədən başqalarına icazə verdi. Çarəsiz, narahat olub, bikef halda evə qayıtdım. Yatağıma girib yatmaq istəsəm də, fikir tamamilə yuxumu qaçırtdı.



Öz-özümə fikirləşirdim ki, nə üçün imam özgələrə görüşə icazə verdi, ancaq yaxın adamı olduğum halda mənə yox? Bu fikirdə idkən birdən qapı döyüldü. Gedib, qapını açdım. Bir nəfər imam Baqir (ə) tərəfindən gəlmişdi. Dedi: Yubanmadan elə indi imamın görüşə gəl! Paltarımı dəyişib, tez həzrətin hüzuruna getdim. İmam hadisəni belə başa saldı: “Mən sənin canını qorumaq üçün görüşə icazə vermədim. Çünki qonaqlar arasında casuslar var idi. Onlar səni mənim evimdə görsəydilər, canın təhlükəyə düşərdi. Ona görə sənə etinasızlıq etdim ki, aramızdakı münasibətə görə başına bir iş gəlməsin.”



## İş və zəhmət

İmam Baqir (ə) ibadət və Allahla raz-niyaza çox vaxt ayırsa da ibadəti iş və zəhmətinə mane olmazdı. İmam əkinçilik işləri ilə məşğul olar, hətta günəşin yandırıcı istisi altında öz işindən əl çəkməzdi. Bu rəftarı ilə hamıya öyrədərdi ki, ibadət iş və zəhmətin qarşısını almır, üstəlik, işləmək və peşə sahibi olmağın özü də bir növ ibadətdir. Hamı öz yaşayışını təmin etmək, başqalarına möhtac olmamaq, hətta başqalarına yardım etmək üçün çalışmalı, özünü zəhmətə salmalıdır. Bununla belə, imamın gündəlik vaxtı çox dəqiq idi, gecə-gündüzün bütün saatları müəyyən nizam üzrə keçirdi və hər hansı işinə dəqiq vaxt təyin etmişdi. Həzrət təmizliyə və səliqəyə çox əhəmiyyət verirdi, həmişə səliqəli geyinir və bunu özü və başqaları qarşısında bir vəzifə bilirdi.



**Elmləri yaran**

Məsum imamlar Allah tərəfindən seçildiyi üçün onlara elm və biliklər də Onun tərəfindən verilir və adi insanlara xas nöqsanlardan uzaqdırlar. İmam Baqir (ə) də həmin qismə aiddir və elmi məllumatı Allah tərəfindəndir. Həzrət xalqı hidayət etməsilə bərabər, həm də dövrünün müsilsiz alim və müəllimi idi. O, sanki elmin günəşi kimi parlayır, böyük alimləri belə öz nuru altına toplayırdı. Belə ki, hər hansı məsələdə çətinliyə düşənlər yalnız ona müraciət edir, o həzrətdən yardım alırdılar.



O həzrət dövrün tələbinə uyğun şəraitdən istifadə edərək elmin dərinliklərini belə açıqlamış, "elmi yaran" və "elmin dərinliyinə varan" mənasını ifadə edən "Baqir" ləqəbi ilə məşhur olmuşdur. Bu ləqəbin izahında Cabir ibn Yəzid Cöfi belə deyir: "O həzrət elmin çox dərinliklərinə toxunaraq bir sıra sirlərə aydınlıq gətirmişdir."

Yəqubi yazır: "Elmin dərinliyinə vardığından o həzrəti "Baqir" adlandırmışlar."

İbn Mənzur yazır: "Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli (ə) elmi yardığı, onun əsaslarını bildiyi və kökünü budaqlarından ayırma qabiliyyətinə malik olduğu üçün "Baqir" adlandırılmışdır.

Cabir ibn Abdullah Ənsari deyir: Bir gün Rəsulullah (s) mənə buyurdu: "Sən məndən sonra bir müddət yaşayacaq, adı mənim adımla eyni və mənə çox bənzəyən övladımı ziyarət edəcəksən. Onunla görüşdükdə, mənim salamımı çatdır. Bu sifarişimi mütləq yerinə yetir və ondan ayrılma!"

Bu əhvalatdan neşə müddət sonra artıq Cabirin qocalıq dövründə bir gün imam Səccad (ə) kənarında bir uşaqla məscidə daxil oldu. İmamın yanındakı uşaq Cabirin diqqətini cəlb etdi. O, imamın yanına gəlib salam verdi və hörmətlə onun yanındakı uşaqdan soruşdu: Adın nədir? Uşaq cavab verdi: "Məhəmməd ibn Əli ibn Hüseyn." Cabir bunu eşidən kimi Peyğəmbərin (s) sözünü xatırlayıb, ağladı və onun əlini öz sinəsinə qoyaraq dedi: And olsun Allaha! Cəddin Rəsulullah (s) sənə salam göndərib və mənə buyurub ki, sən elmləri yaransan."



## Xəlifənin hiyləsi və imam Baqirin şəhadəti

İmam Məhəmməd Baqirin (ə) Mədinədə şagirdlərinin sayı çox idi və üstəlik, həzrətin gözəl davranışı, insani keyfiyyətləri onun məhəbbətini camaatın ürəyinə salmışdı.

Odur ki, İmam barədə məlumatlar casuslar vasitəsilə dövrün xəlifəsi Hişam ibn Əbdülməlikə çatdırılırdı. Hişam da digər zalım hökmranlar kimi hamı tərəfindən sevilən belə bir şəxsin xalq arasında olmasını təhlükə bilirdi. Ona görə də imama rəqib gözü ilə baxır, camaatın onun ətrafına toplaşmasından qorxur və hökumətə başağrı yarada biləcəyindən ehtiyat edirdi.

Odur ki, daim həzrəti necə aradan götürməyi barədə düşünürdü. Bəzən fikirləşirdi ki, Mədinəyə qoşun yeritsin və imam Baqirlə (ə) döyüşsün. Ancaq camaatın ona qarşı bədbin olacağından çəkinərək bu işi etmirdi. Hətta, fikirləşirdi ki, camaat bu işə görə xəlifəyə gülər, onu ələ salar və deyərlər ki, Hişam bir nəfərə qarşı qoşun göndərir.

Nəhayət, bu barədə müşavirləri ilə məsləhətləşdi. Günlərin birində Hişamın məmurları Mədinəyə gələrək o həzrətin evinə getdilər. Onlar imama dedilər: Hişam bizə tapşırıb ki, səni Şama aparaq.

İmam səfərə hazırlaşdı və oğlu Cəfəri (ə) də özü ilə götürərək Hişamın məmurları ilə birgə Şama getdi.

Şama çatdıqda, məmurlar imamı xəlifənin sarayına apardılar və sarayın qarşısında atdan endirdilər.

Onlar bir neçə gün xəlifənin sarayı qarşısında gözləməli oldular. Nəhayət, xəlifə onlara görüşə verdi.

İmam məclisə oğlu ilə daxil oldu. Xəlifə taxtda oturmuşdu və saray əyanları da kənarında dayanmışdılar. İmam Baqir (ə) xəlifə ilə üz-üzə dayanmadan məclisin bütün iştirakçılarına xitab edərək dedi:

"Salamun əleyküm."

Xəlifə elə güman edirdi ki, imam Baqir (ə) əvvəl onun yanına gələrək xüsusi salamlayacaq. Amma onun gözlədiyi kimi olmadı. Odur ki, bərk narahat olaraq rəngi dəyişdi, qəzəb və hiddətin təsiri üzündə göründü. Axır, özünü ələ alaraq bir az sakitləşdikdən sonra üzünü imama tutub dedi: Bu günlərdə oxatma yarışımız vardır. Sənin də bu yarışda iştirak etməyin yaxşı olar. İmam Baqir (ə) buyurdu: "Mən artıq qocalmışam, ox atmaq vaxtım ötüb keçib, məni üzrlü sayın."



Bunu yaxşı fürsət bilib, imamın məğlubiyyət astanasında dayandığını güman edən Hişam daha da təkidlə onun yarışda iştirak etməsini istədi. Sonra məmurlardan birinə işarə etdi ki, öz yay-oxunu imama versin. O da öz yayını bir neçə oxla birgə imama verdi. İrəlidə dairəvi nişangah təyin edilmişdi. İmam xəlifənin məqsədini anlayaraq sözünü qəbul edib, onları əlinə aldı və yayı çəkib, oxu atdı. Ox düz nişangahın ortasına sancıldı. Məclis iştirakçılarının hamısını heyrət bürüdü. Xəlifə özlüyündə fikirləşdi ki, ola bilsin, bu bir təsadüfi hadisədir.



Ona görə də imamdan daha bir ox atmasını istədi. İmam ikinci oxu da kamana qoyub atdı. Ox birinci oxun ortasını yarıb, hədəfə sancıldı. Bu dəfə hamı heyrətdın mat qaldı. Belə bir hadisəni gözləməyən xəlifə qəzəbini gizlədə bilmədi. İmamın üçüncü oxu da ikinci oxu yarıb, nişangaha sancıldı. Beləliklə, həzrət doqquz ox atdı və oxların hər biri qabaqkını dələrək düz nişangahın ortasına sancıldı. Bu qeyri-adi hadisəni müşahidə edənlər yerində donub, qalandan sonra birağızdan o həzrətin məharətini alqışlamalı oldular.

Gümanı yanlış çıxan və planı puç olan Hişam məclis iştirakçılarının imamı alqışlamasını görüb, daha da hiddətlənsə də, lakin öz qəzəbini gizlətməyə və udmağa cəhd etdi. Ona görə də, zahirdə imamla mülayim davranaraq onu taxtının yanında oturmağa dəvət elədi. İmam isə qəbul etməyib, dayandığı yerdən tərpənmədi.

Hişam üzünü həzrətə tutaraq dedi: “Afərin sənə, ey Cəfərin atası! Sən ərəb və əcəm (qeyri-ərəb) içrə ox atanlarının ən üstünüsən. Belə məharəti kimdən öyrənmisən?” İmam Baqir (ə) buyurdu: “Özün bilirsən ki, Mədinə camaatı arasında ox atmağın tərəfdarı çoxdur və onlar bu işə adət edib. Mən də cavanlıqda bir müddət bu işlə məşğul olmuş, sonra tərk etmişəm. Bu gün sənin təkidinə görə qəbul etdim.”

Hişam dedi: Mən indiyədək bunun bənzərini görməmişdim. Sənin məharətin olduqca yüksəkdir!

İmam buyurdu: “Ey Hişam, biz Peyğəmbərin (s) əhli-beytiyik. Elm və hünəri bizə Allah bəxş edib və o da nəsilbənəsil bir-birimizə irs keçir. Başqalarında olan hər hansı elm və bacarıq naqis, bizdə isə kamildir.”



Hişam imamın sözündən hiddətlənərək dedi: Bəs, biz hamımız Əbdümanafın nəslindən deyilikmi?

İmam buyurdu: “Bəli, hamımız Əbdümanafın övladlarıyıq. Amma Allah öz xas elm və hikmətini yalnız bizə bəxş edib. Necə ki, cəddimiz cəddim Məhəmməd (s) hamıdan üstün idi və tayı-bərabəri yox idi.”

Hişamın hiddəti getdikcə daha da artırdı. O, tutduğu işindən peşman olmuşdu. Məmurlarına göstəriş verdi ki, imam Baqiri (ə) oğlu ilə birgə Mədinəyə yola salsınlar.



Hişam imamı öldürmək üçün bir yol və fürsət axtarırdı. Çox məşvərətdən sonra bunu yalnız o həzrəti zəhərləməkdə gördü.

Nəhayət, bu işi bir nəfərə tapşırıb, imama sui-qəsd hazırladılar. Hadisə hicrətin 114-cü ili, zilhiccə ayının yeddisində həyata keçdi. O zaman imam Baqirin (ə) əlli yeddi yaşı vardı.

Qürub çağı həzrət artıq zəhərləndiyini hiss etdi. Oğlu Cəfər Sadiqi (ə) yanına çağırdı. Cəfər (ə) dərhal özünü atasına çatdırıb, yanında əyləşdi. İmam ona buyurdu: “Oğlum, məni zəhərləyiblər. Mən bu gecə dünyadan köçəcəyəm. Bir az öncə aləmi-röyada atam Zeynəlabidini (ə) ziyarət etdim. Əlində çox dadlı və ətirli şərbət var idi. Mən də o şərbəti içdim. O da mənə tezliklə əbədi diyara və Haqqın görüşünə gedəcəyimi müjdə verdi.”

Atasının bu sözlərini eşidən Cəfər (ə) ağlamağa başladı. İmam Baqir (ə) atasından ona irs qalan üzük və Quranı oğluna verib, son vəsiyyətin etdi.

İmam Baqir (ə) elə həmin gecə dünyasını dəyişdi. Ertəsi gün Mədinə matəmə qərq oldu.

Camaat imamın evinə axışdı və həzrətin cənazəsini Bəqi qəbiristanlığına apararaq atası Zeynəlabidin (ə) və əmisi imam Həsənin (ə) yanında dəfn etdilər.



## O həzrətin kəlamlarından:

“Elmi faydalı alim yetmiş min abiddən üstündür.”

“Dünyasını axirətinə, axirətini isə dünyasına görə tərk edən bizdən deyildir.”

“Üç şey insanın belini qırır:
1. Öz əməlini böyük saymaq;
2. Öz günahını yaddan çıxarmaq;
3. Öz rəyindən xoşu gəlmək.”



# İmam Baqir (ə)

